# Epoxal roman-dilogiya - ömrün acılı-şirinli illərinin bədii salnaməsi

## və yaxud, xatirə-memuar janrında bədii-audentik roman...



*Qurban BAYRAMOV,*
*tənqidçi-ədəbiyyatşünas*

*(Əvvəli ötən saylarımızda)*

Romanın dil, üslub xüsusiyyəti də maraqlıdır. Məmməd bir yaradıcı fəhmi ilə dilin bədii nüanslrını tapır, dili duyur, dili hiss edir... Burada bədii dil ilə, məişət dilinn sərişteli uyarlığı var, biri-digərini tamamlayır, təsvir olunan mühitə uyğun dil koloriti yaradır.- Məmmədin roman-dilogiyası dil müstəvisində qənaətbəxşdir və hər bir surətin özünəməxsus, yəni mənsub olduğu sosial zümrəyə xas leksikonu, müəllif təhkiyyəsinin də özünəməxsus, ədəbi dil normalarına uyğun, naturalizmdən xeyli uzaq leksik axarı var. Başqa sözlə, Məmməd Əliyevin dilogiyası "darıxdırıcı roman" deyil, əksinə maraqla oxunan romanlar sırasına daxildir. Bu roman bir gəncin həyat mücadiləsi manifestidir, ümid qapılarının açarını tapa-tapa irəliləyən, müvəffəq olan bir gəncin - burada Muradın!!

Dilogiyanın qəhrəmanı Murad üçün həyat, yaşamaq eşqi ilə qəlbi çırpınan bir gəncin fövqəladə şəraitdə, mənəvi-əxlaqi, sosial münaqişələr məkanında məsum insanların dadına çata-çata, harayına yetişə-yetişə onun içindən, daxili aləmindən gələn mənəvi gücün, cəsarət duyğusunun, insanlıq hissinin bariz təzahürüdür. Təmkinlilik, mənəvi-əxlaqi dolğunluq və gənc yaşa uyğun gəlməyən mükəmməllik, səmimi və məntiqli düşüncəyə sahib olmaq Muradın xarakterinin bariz keyfiyyətlərindəndir. Elə bil, həyat dərsləri, onun ağlını, dərrakəsini, davranışını vaxtından qabaq yetişdirib, onu "ağsaqqallaşdırıb"!! Fikrimcə, Muradın həyat romanı olan bu dilogiya (müəlliflə söhbətdən aydın oldu ki, bu roman XX əsrin ikinci yarısından bu günümüzə qədər Azərbaycanda yaşayan bir çox nəsillərin taleyini səciyyələndirən dövrü əks etdirən, beş kitabdan ibarət"pentalogiya" olacaq) mühitimizdə gənclər üçün dəyərli əxlaqi-mənəvi ideya qaynağıdır...

Müşahidə etdiyim bir cəhəti də qeyd etmək istərdim - Məmməd Əliyev bu dilogiyasında güclü müşahidəçi və realist yazıçı tipindədir. Ziddiyyət, ümid və məyusluq kimi insan duyğularının təsvirlərini gördüyümüz, reallığın müxtəlif hallarını, kodlarını və şifrələrinin şahidi olduğumuz bu roman-dilogiyada o, tanıdığı və müşahidə etdiyi, əlaqə və təmasda olduğu insanları obraz olaraq seçib, onları yaşadıqları mühitə, məkana, vəziyyətə və xarakterlərinə uyğun məzmunda, tam səmimiyyəti ilə təqdim edibdir.

Yeri gəlmişkən, qeyd edək ki,silsilə təşkil edən iki hissəli roman dilogiya, silsilə təşkil edən üç hissəli roman trilogiya, dörd hissəli tetralogiya (kvadrologiya), beş hissəli pentalogiya və s. adlanır. Sonuncular əsasən musiqi əsərlərinə və müasir teleseriyallara aid edilir. Bədii ədəbiyyatda ən çox dilogiya və trilogiya mövcuddur. Azərbaycan nəsrində, məsələn, M.Hüseynin "Abşeron", "Qara daşlar" romanları birlikdə dilogiyadır. M.S.Ordubadinin "Gizli Bakı", "Döyüşən şəhər" və "Dünya dəyişir", Əzizə Cəfərzadənin "Eldən-elə", "Aləmdə səsim var mənim" və "Vətənə qayıt" romanları isə trilogiyadır.

Dilogiya və trilogiyada hər hissə müstəqil roman sayılır və hər birinin də, bir qayda olaraq, öz müstəqil adı olur. Sadəcə, bu müstəqil romanları azçox eyni mövzu və eyni obrazlar birləşdirir. Tarixi qədimdir və antik ədəbiyyata (bizim eradan əvvəl IV-V əsrlərə) gedib çıxır. İlk dəfə Yunanıstanda dramaturgiya janrında yazılan silsilə pyeslərə tədbiq edilibdir. Esxilin, Sofoklun əsərləri buna misaldır. Yeni dövr ədəbiyyatında F.Şillerin ("Vallenşteyn"), R.Vaqnerin ("Nibelunqlar"), A.K.Tolstoyun ("İvan Qroznunun ölümü", "Çar Fyodr İannoviç", "Boris Qodunov") pyesləri, Dümanın ("Üç muşketyor", "İyirmi il sonra", "Vikont de Brajelon"), Emil Zolyanın ("Lurd" , "Rim", "Parij"), L.N.Tolstoyun, M.Qorkinin memuarları bu sıradan olan dəyərli trilogiya nümunələridir.

Əgər, Məmməd Əliyevin Azərbaycan həqiqətlərini - vətənpərvərlik, qəhrəmanlıq, cəsarət, dəyanət, yenilməzlik, ağsaqqala-ağbirçəyə, ata-anaya sayqı, dosta etibar, qadına sevgi və sədaqəti; dövrün insanlarının dünyabaxışını, ictimai-əxlaqi, dini görüşlərini,insan taleyinə humanist baxışları, başqa sözlə, azərbaycanlı statusunuəks etdirən (indiki halda dilogiyası) kompozisiya bütövlüyünə malikbu memuar romanlar silsiləsibeş kitabdan ibarət "pentalogiya" olarsa dünya ədəbi mühitində bu janrda, bu ölçüdə Azərbaycan ünvanlı ilk ədəbi-bədii fakta çevriləcəkdir!!

### (Dördüncü məqalə)

Azərbaycan türklərinin mifoloji düşüncəsinin qaynaqları öz kökləri etibarı ilə tarixin çox dərin qatlarına bağlanır. Onların izlərini gen yaddaşından adət-ənənələrə, ayinlərə, qədim bayramlara, folklor örnəklərinə, klassik ədəbiyyata, ümumiyyətlə, mədəniyyət formalarına qatmaqla unudulmağa qoymayıblar. Genetik yaddaş - qan yaddaşı burada mühüm amildir ki, biz bu romanda bütün süjet boyu bu qəbildən olan amillərin şahidi oluruq və cani-dildən inanırıq...

BU ROMAN MÜƏYYƏN İCTİMAİ DÖVRÜN İCTİMAİ-SOSİAL DİNAMİKASINI BƏDİİ TƏSVİR SİSTEMİ MÜSTƏVİSİNDƏ TƏQDİM EDƏN FUNDAMENTAL HƏCMİLİ EPİK-BƏDİİ ƏSƏRDİR.







Romanın xatirə janrı xronotopun, əhvalatın səlis təqdiminə vəsilə olmuşdur. Əsərdə ictimai-siyasi-sosial hadisələrin yarım əsrdən artıq inkişaf mərhələləri öz gerçək tarixi nüfuzunu, başqa sözlə bədii təqdimatda tarixi reallığını saxlamışdır. Bu roman ardıcıllıqla həmin dövrdə yşamış hər bir azərbaycanlı üçün aydın olan, xalq həyatından, məişət və folklorundan irəli gələn həyatın bədii təqimatıdır. Bu təqdimat həmin dövrü görməyən oxucular üçün daha maraqlıdır, ona görə ki, onlar atababalarının, sələflərinin nələr yaşadığının, nə kimi tarixi mərhələdən keçdiklərinin canlı təsviri ilə məlumatlanırlar, başqa sözlə, onlar sanki həmin dövrü yenidən yaşayırlar...

Bu roman dilogiya sərbəst düşüncə axarında, tarixi gerçəkliyə uyğun bir tərzdə, süniritorikadan kənar üslubda qələmə alınmışdır. Müəllif təsvir etdyi məkanda özünü tam sərbəst hiss edir və yaşadığını, eşitdiyini, bildiyini, gördüyünü yeni düşüncə modelində qələmə alıbdır. Yaşanılan dövrün, zamanın, günün sosial-psixoloji portretinin ayrı-ayrı fraqmentləri ardıcıllıqla müəllif həyatında birləşərək bütövləşir, bütöv hadisəyə şevrilir...

MƏMMƏD ƏLİYEVİN DİLOGİYASINDA TƏKCƏ BİR GƏNCİN TƏRCÜMEYİ-HALI DEYİL, BU FONDA ƏSRİN, DÖVRÜN, ZAMANIN, CƏMİYYƏTİN ƏN TALEYÜKLÜ ANLARI, PROBLEMLƏRİ, İNKİŞAF TƏMAYÜLLƏRİ, REQRESSİV CƏHƏTLƏRİ ÇILPAQ FAKTLARLADEYİL, İNSAN TALELƏRİNİ ŞƏRTLƏNDİRƏN FAKTLARLA TƏQDİM EDİLİR. CƏMİYYƏT NƏDİR - CƏMİYYƏT BÖYÜK HƏRFLƏRLƏ YAZILAN İNSAN TALELƏRİDİR!! Bu epopeya siqlətli tarixi roman, əqidəli müəllifin VİCDANININ SƏSİNƏ QULAQ ASARAQ qələmə aldığıbədii əsəridir... Bu roman-epopeya bir ömrün həqiqətlərini insan həqiqətinə çevirərək hamıyla səmimiyyətlə paylaşmadır... O, roman dilogiyasında saf əqidəli, təmiz məqsədli, zatən hər hərəkətinə, hər sözünə görə məsuliyyət daşıyan, xürafatdan uzaq dini-mənəvi, müqəddəs islami dəyərlərdən nəşət edən ənənələrə söykənən, müasir dünyəvi elmiləri mənimsəyən bir gəncin iztirabları, sevinci axarında xəlqi-milli mənəviyyatı, etibarı, ruh azadlığını, cəsarəti, əxlaqi dəyərləri və sevgini - əbədi sevgini, Vətən sevgisini verməyi bacarmışdır... Məmməd Əliyev roman-dilogiyası (trilogiyası - dörd hissəli tetralogiyası (kvadrologiya), beş hissəli pentalogiyası) ilə sübut edir ki, əsil insan həm fərd olaraq öz ömrünü yaşayır, həm də bütünlüklə millətin tarixinin bir parçası olaraq o tarixi şəxsində ehtiva edərək yaşayır,ilkin enerjiylə, ilkin ovqata sarı sim təkin köklənərək xalqın, millətin yaddaş panteonunda bərqərarlaşır... Elə buna görə də, romanı həyəcansız, fikrə qərq olmadan, psixoloji sintesiyalar keçirmədən oxumaq olmur...

Məmməddə süni motivsiya yoxdur, zəif-güclü, başdan-ayağa özüdür - öz səmimiyyətilə. Öz duyğu və düşüncələri ilə... Onun üslubunun prioriteti reallıqdır, faktdır, antireallıq dalınca qaçmır, ürəyinin, könlünün istəyincə yazır. Məram və istək müsəlləhdir. Bəzi yazıçılar, şairlər yazılarında aktyorlar kimi qrimlənirlər, yazılarında özlərini - əsillərini gizlədirlər, həyatdakı kimi olmurlar. Süni intellektualizm nümayiş etdirməyə çalışırlar, o da alınmır... Özləri olmurlar, özgənin qlafında gəzişirlər... Sənətin isə bir postulatı var : "Ya olduğun kimi görün, ya da, göründüyün kimi ol!" Romanın qəhrəmanı Murad olduğu kimi görünən xrakterdir, bəzəksiz-düzəksiz, məşşatəsiz, qirimsiz...

Mənə elə gəlir ki, Məmmədin bu dilogiyası memuar janrının formatında yeni tipli romandır... Burada, təkcə müəllif, onun probrazı Murad statik planda, süjetin "nağılçısı" deyil, müəllif süjet boyumanevr edir, digər obrazların təəssuratlarını, fikirlərini, münasibətlərini də, onların öz dilindən təqdim edir ki, digər memuarlarda bu yaradıcılıq manevrinə rast gəlməzsiniz... Yəni rupor, yaxud mikrofon bir əldə olmur, romanın təsvir edildiyi məkanlar boyu əldən-ələ keçir, müxtəlif şəxsiyyətlərin fikir axarı bir məcrada vahid axına çevrilir... Bu poman tipində təxəyyüldən gələn paradoksal təxminlər, ehtimallar, fərziyyələr, qurama, saxta, aldadıcı fraqmentlər yoxdur... Məqsəd nədir? Məqsəd odur ki, olanları pisli-yaxşılı, müsbətli-mənfili, düzlü-səhvli, hərtərəfli canlı və olduğu kimi göstərmək.

Fikrimizcə, bu günə qədər mövcud olan bu tip romanlar sırasında belə ədəbi mətndə belə təhkiyyə bizim ədəbiyyatımızda ilk dəfə baş verir. burada güclü, oxucunu heyrətə gətirən, təkrarolunmaz bədiilik, obrazlılıq var. Roman-dilogiya yaşadığımız həyatımızı, romandakı personajların düşüncə dünyasında, həyata baxışında, yaşam tərzində bütün rəngarəngliyiilə təqdim edə bilir, keçmiş indiki zamanda zühur edir. Buradakı məkan və zaman keçidləri bədii assosiasiyanın alt qatında hərəkətdədir... Paralelizm yaranır - hiss və duyğular daim fiziki və metafizik dünya arasında hərəkətdədir. KİM NƏ DEYİR-DESİN, BU DİLOGİYA (TRİLOGİYA VƏ S.) HƏM FORMATINA, HƏM ÜSLUBUNA, HƏM EPİZMİNƏ GÖRƏ MEMUAR JANRINDA OLAN, SOSİAL-PSİXOLOJİ ÇALARLARLA ZƏNGİN, XATİRƏ LƏR SİLSİLƏSİNİ EPOS MODELİNƏ UYĞUNLAŞDIRIB TƏQDİM EDƏN YENİ ROMAN TİPİDİR... Müəllif bu memuar epos-dilogiyasında müasir oxucunu xalqımızın müəyyən bir zaman və məkan kəsimindəki həyatına şahidlik etdirir, ora qaytarır və yeni nəslə, "sən bu keçmişdən, keçəcəkdən gəlmisən" söyləyir, yaddaş estetikası vasitəsilə müasirliklə keçmiş arasında ünsiyyət, əlaqə yaradır, yeni nəslin enerji mənbəyini göstərir: "Bax, sən buradan, bu cövhərdən nəşvü-nüma etmisən!!" Və bu estetik xətt saf, tərtəmiz yaddaşın məhsulu təkinroman qəhrəmanının ömrünün mühüm faktları, psixoloji ağrıları, ruhsal gərginlikləri silsiləsində verilir, romanda bütöv bir düşüncə platformasında qərarlaşır...

*(Davamı var)*